# *Prezident İlham Əliyev:* İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycanı tam dəstəkləməsi qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir

***Tarixən formalaşan Azərbaycan–Pakistan əməkdaşlığı müstəqilliyimiz dövründə daha da möhkəmlənib. Belə ki, Pakistan ölkəmizin müstəqilliyini tanıyan (12 dekabr 1991-ci il), onunla diplomatik əlaqələr yaradan (9 iyun 1992-ci il) və Azərbaycanda səfirliyini açan (12 mart 1993-cü il) ilk müsəlman dövlətlərindən biri olub. Eyni zamanda, Pakistan ölkəmizin mənafeyini bütün beynəlxalq təşkilatlarda ardıcıl şəkildə müdafiə edib, Ermənistanın təcavüzünə birmənalı münasibət bildirib. Onu da xatırladaq ki, 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycana dair 822 nömrəli qətnaməsinin qəbul olunduğu iclasa Pakistan sədrlik edib.***

Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın o vaxtkı Baş naziri Benazir Bhutto ilə görüşündən sonra ikitərəfli münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Bundan bir il sonra, oktyabr ayında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Bakıda rəsmi səfərdə olub, 1996-cı ilin aprelində isə ulu öndər Heydər Əliyev dost ölkəyə səfər edib.

Səfərlər zamanı iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, habelə iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün bir neçə saziş imzalanıb. 1997-ci ildə isə Azərbaycan Pakistanda öz səfirliyini açıb və rəsmi İslamabad ilə münasibətləri daha da genişləndirib.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə isə Azərbaycan-Pakistan münasibətləri müasir inkişaf mərhələsinə yüksəlib.

Pakistan Prezidenti Pərviz Müşərrəf 2004-cü il iyulun 8-dən 10-dək Azərbaycanda rəsmi səfərdə olub, bir sıra mühüm görüşlər keçirib. P.Müşərrəflə görüşündə Prezident İlham Əliyev Ermənistan–Azərbaycan münaqişəsində ölkəmizin ədalətli mövqeyinin rəsmi İslamabad tərəfindən daim dəstəklənməsi faktını xüsusi vurğulayıb. Səfərin yekunu kimi, Azərbaycan və Pakistan hökumətləri arasında turizm və gömrük işi sahəsində əməkdaşlıq haqqında sazişlər, habelə digər mühüm sənədlər imzalanıb.

Ötən dövr ərzində iki ölkənin dövlət və hökumət başçılarının, parlament rəhbərlərinin qarşılıqlı rəsmi və işgüzar səfərləri zamanı imzalanan sənədlər çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması üçün lazımi hüquqi baza yaradıb.

***(ardı 5-ci səhifədə)***

# *Prezident İlham Əliyev:* İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycanı tam dəstəkləməsi qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir

*(əvvəli 1-ci səhifədə)*



Beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərdə aparılan yüksəksəviyyəli siyasi dialoq ən müxtəlif sahələrdə münasibətlərin inkişafına və əlaqələrin daha da möhkəmlənməsinə müsbət təsir göstərib.

Pakistan Dağlıq Qarabağı və ətraf əraziləri işğal etdiyinə görə Ermənistanı dövlət kimi tanımayıb və onunla diplomatik əlaqələr qurmayıb. Dost ölkə hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib.

Pakistan parlamentinin keçmiş Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı barəsində qəbul etdiyi bir sıra qətnamə və bəyanatlar da bu dəstəyin önəmli hissəsidir. Pakistan parlamentinin Vətən müharibəsi dövründə də prinsipial mövqeyini birmənalı şəkildə ifadə etməsi Azərbaycanda yüksək qiymətləndirilir.

Dost və qardaş ölkələr olan Pakistanla Azərbaycanın münasibətləri hazırda strateji müttəfiqlik səviyyəsindədir. Pakistan Prezidenti Azərbaycanın 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarını azad etməsi münasibətilə təbriklərini çatdıran ilk dövlət başçılarından biri olub. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi Pakistanda böyük sevinc hissi ilə qarşılanıb. Pakistan həmişə ölkəmizin haqq işində onun yanında olub.

Yeri gəlmişkən, Vətən müharibəsinin ilk günündə Pakistan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilirdi: “Erməni silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycanın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin mülki əhalisini intensiv atəşə tutmasını qınayırıq və bu, növbəti təxribatdır. Bu, bütün bölgənin sülh və təhlükəsizliyi üçün ciddi təhdiddir. Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı olan qətnamələrinə əsaslanan mövqeyini dəstəkləyirik”.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanla Pakistanın bir-birinə qarşılıqlı dəstəyi əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir.

Pakistan Prezidenti 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının 18-ci Zirvə toplantısı çərçivəsində ölkəmizdə səfərdə olub. Həmin vaxtdan ötən qısa müddətdə ölkələrimiz arasında müxtəlif sahələrdə imzalanan bir sıra hüquqi sənədlər Azərbaycanla Pakistanın arasında əlaqələrin bazasını təşkil edib. Bu xüsusda 2015-ci ildə Bakı şəhərində imzalanan “Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə” xüsusi önəm daşıyıb.

Mədəni və humanitar sahələrdə yüksələn xətlə inkişaf edən münasibətlər də xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına müsbət təsir göstərib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə bu sahədə mühüm əhəmiyyətli sosial-humanitar layihələr həyata keçirilib. Məhz bu xeyirxah əməllərinə görə Mehriban xanım Əliyeva Pakistanın Ali Ordeni – “Hilal-e Pakistan” ilə təltif olunub.

Prezident İlham Əliyev iyunun 21-də Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı, ordu generalı Qamar Caved Bacvanı qəbul edərkən, iki qardaş və dost ölkə arasında sıx tərəfdaşlıq münasibətlərini yüksək dəyərləndirərək, deyib: “Biz çox şadıq ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Pakistan və Azərbaycan iki qardaş ölkə olaraq ikitərəfli əlaqələrini gücləndirir. Biz, xüsusilə, İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycana göstərdiyi çox fəal dəstək mövqeyinə görə minnətdarıq. Müharibənin ilk günlərindən ölkənizin ali rəhbərliyi – Prezident və Baş nazir ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdilər. Bu, bizim əməkdaşlığımızın çox mühüm elementi və qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir. Pakistanın digər yüksək rütbəli rəsmiləri, parlament üzvləri və ictimai xadimlər Ermənistan ordusunun tam məğlubiyyəti və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük müharibə ərzində bizi dəstəklədilər. Dağlıq Qarabağ münaqişəsi Azərbaycan tərəfindən güc və siyasi yolla həll olundu”.

Dövlətimizin başçısı daha sonra Pakistanın bizim torpaqlarımızın işğalı səbəbindən Ermənistanı tanımadığını və bu ölkə ilə diplomatik əlaqələr qurmayan az sayda ölkələrdən biri olduğunu bildirib. Prezident İlham Əliyev bu faktın ölkələrimiz arasında qardaşlıq əlaqələrinin daha bir nümayişi kimi diqqət çəkdiyini vurğulayıb: “Azərbaycan xalqı bunu bilir. Biz hər zaman Azərbaycanı kimin dəstəklədiyi və müharibə zamanı bizi kimin dəstəklədiyi barədə mesaj veririk. Ona görə də bütün şəhər və ölkə boyu Pakistan bayraqlarının olması təəccüblü deyil, bunun nəticəsində ölkələrimiz və xalqlarımız arasındakı qardaşlıq güclənəcək”.

Dövlətimizin başçısı çıxışında, həmçinin Azərbaycanın Kəşmir məsələsində hər zaman Pakistanı dəstəklədiyini, bununla əlaqədar daim açıq mövqe nümayiş etdirdiyini də xatırladıb. Ölkə rəhbəri bu mövqenin ədalətə, beynəlxalq hüquq və qardaşlıq əlaqələrinə əsaslandığını qeyd edib.

Prezident İlham Əliyev daha sonra Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq hüquq və ədaləti fəal şəkildə müdafiə etməsi barədə də fikirlərini bölüşərək deyib: “Mən Bakıda keçirilən sammitdə şəxsən iştirak etdiyinə və Qoşulmama Hərəkatı çərçivəsində bizim təşəbbüsləri dəstəklədiyinə görə Pakistanın Prezidentinə çox minnətdaram. Əməkdaşlığımız uğurla inkişaf edir. Biz müdafiə və müdafiə sənayesi sahələrində çox yüksək səviyyəli tərəfdaşlıq nümayiş etdiririk. Sizin bizim ölkəmizə səfəriniz bunun daha bir göstəricisidir. Biz Pakistanın müdafiə sənayesi məhsullarına çıxışımız olduğuna görə məmnunuq. Bildiyiniz kimi, biz bu məhsulları alırıq, bu da bizim hərbi potensialımızı gücləndirir. Düşünürəm ki, qarşıdakı illərdə biz hərbi əməkdaşlığımızı genişləndirməli və tərəfdaşlığımızı gücləndirmək üçün birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırmalıyıq”.

Azərbaycanın Ermənistanı məğlub edərək ərazilərini geri qaytarmasını hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisə adlandıran Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacva dövlətimizin başçısı ilə söhbətində bildirib: “Ölkənizə qarşı qərəzliliyə baxmayaraq, Siz ərazi bütövlüyünüzü bərpa etdiniz. Sizi səmimi qəlbdən təbrik edirəm. İkincisi, mən qeyd etmək istərdim ki, 1993-cü ildə dostlarımdan biri Azərbaycana gəlmişdi və o zaman çox məyus olmuşdu. O, ötən il buraya səfər etdi və heyran oldu, dedi ki, görkəmli şəxsiyyət olan atanızın və Sizin rəhbərliyinizlə Azərbaycan son 30 ildə inkişaf edib. O qeyd etdi ki, bunu yüksək qiymətləndirir”.

Göründüyü kimi, bu gün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra dünyadakı ikinci əsas strateji müttəfiqi hesab etmək olar. İki ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli intensiv münasibətlər mövcuddur. İndiyədək hər iki ölkə BMT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, regional qurumlarda eyni mövqedən çıxış edib, Kəşmir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemlərinə eyni mövqedən yanaşıb və bu münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar olduqlarını bildirib.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*

Xalq qəzeti.- 2021.- 23 iyun.- S.1;5.